Ədəbiyyat QƏZETİ

## Bu gün Bəxtiyar Vahabzadənin anım günüdür

# USTADLA SÖHBƏT



**Salam, ustad!**

Yenə də qədim Şəkidə - ata yurdunun mərkəzində yerləşən və 2009-cu ildən Sənin adını daşıyan parkda ucaldılmış büstünün qarşısındayam. Bu gün fevral ayının on üçüdür, vəfatından altı il keçir, anım günündür. Yox, səhv elədim, axı biz Səni təkcə ildə bir dəfə, vəfatının ildönümü günündə anmırıq ki... Təkrar-təkrar, dönə-dönə qayıdırıq Sənə, hər dəfə də şəxsiyyətinə, yaradıcılığına daha möhkəm tellərlə bağlanırıq. Qələminin adidə qeyri-adini göstərmək, damlada ümman yaratmaq qüdrətinə bir daha heyran oluruq. Hər misranın, hər kəlmənin arxasında Sənin doğma vətənin, millətin üçün ağlayan gözlərini görürük, satqınlara, xainlərə alov püskürən hayqırtılarını eşidirik:

*Səhl Sumbat,*
*Sata bildin*
*Nəyi nəyə, kimi kimə?*
*Tək olsaydın,*
*Heç adını tutmaz idim,*
*Mikrob kimi ələnmisən*
*Tariximə!*

Üzündəki, alnındakı dərin qırışlarda "Gülüstan"-dan "İstiqlal"a doğru gələn yolda çəkdiyin ağrı-acıların, əzabların izini görürük. Şükürlər olsun ki, ölkəmizin öz azadlığına qovuşduğu günü görə bildin, üçrəngli bayrağımızın başımızın üstündə dalğalanmasından doğan qüruru yaşadın. Amma, təəssüf ki, əbədiyyət dünyana ürəyində dərin yara, qəlbində ağır nisgillə getdin, Qarabağ bülbüllərinin xoş sədasını, qələbə müjdəsini eşidə bilmədin. Gün gələr, böyük fəxrlə vəsf etdiyin "qurdbaşlı bayrağın balası" olan bayrağımız Şuşada yüksələr, bax, onda nigaran ruhun rahatlıq tapar, ustad!

Bu il həm də Sənin yubiley ilindir, avqust ayında 90 yaşın tamam olacaq. Sağ olsun qədirbilən Prezidentimiz, Sənin 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzaladı. Sərəncamdakı bir cümlə diqqətimi daha çox çəkdi: "Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır". Bu, Sənin şəxsiyyətinə və yaradıcılığına verilmiş ən dəqiq və çox yüksək bir qiymətdir. Əziz şairimiz, həqiqətən də, ədəbiyyat tariximizdə Sənin xüsusi mövqeyin, özünəməxsus yerin var. Sən elə bir ədəbi zirvədəsən ki, hər dəfə o zirvəyə baxanda özümüz də mənən ucalırıq.

Anan vəfat edən vaxt yazdığın "Bu gün yeddin oldu" şerində belə misralar var:

*Vaxt keçir, sən məndən uzaqlaşırsan,*
*Mən sənə günbəgün yaxınlaşıram.*

Bəli, Sən bizdən uzaqlaşdıqca, biz Sənə daha çox yaxınlaşırıq, ustad!

Ruhun şad olsun!

**Mayis SƏLİM**